**Rzaquliyev C.M.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.91-94**
**UOT: 343**

## “Nemesis” əməliyyatı: Erməni terrorunun qanlı əli

**Xülasə:** Məqalədə ermənilərin “Nemesis” planı araşdırılmış, bu plandan irəli gələrək törədilmiş cinayətlərə nəzər salınmışdır.

Ermənilərin terror təşkilatları araşdırılmış və adə çəkilən təşkilatların ortaq xüsusiyyətləri təhlil edilmişdir.

**Açar sözlər**: terror; “Nemesis”; erməni terroru; partlayış terror cinayəti.

Nemesis adı intiqamı simvolizə edən qədim yunan ilahəsinin adından götürülmüşdür. Ermənilərin bu adı seçməkdə məqsədləri qondarma “erməni soyqırımı”nın və 1918-ci illin sentyabrında Bakının ermənilərin işğalından azad edilməsinin intiqamını almaq idi.

Ermənilərin Birinci Dünya Müharibəsindən sonrakı vəziyyətə tezliklə “uyğunlaşdı”lar və yeni terror təşkilatları yaratdılar. Bunların arasında Nemesis (Նեմեսիս), ASALA (Աձոձ) və Erməni İnqilab Ordusu (ՀայՀեղափոխականղանակ) adlı təşkilatlar özlərinin uzun müddətdir ki, törətdikləriəməlləri ilə dünya ictimaiyətinin gündəmini zəbt etmişdir.

1918-ci ilin oktyabrında İrəvanda “Daşnaksütyun” terror təşkilatının qurultayı keçirilir. Qurultayda erməni xalqına “soyqırım” törətməkdə təqsirli bilinən 650 nəfərin siyahısı hazırlanır və bu şəxslərdən 41 nəfər “soyqırım”ın əsas təşkilatçıları hesab edilir. Bu şəxslərin içərisində həm Osmanlı imperiyasının, həm də AXC-nin dövlət xadimləri var idi [3, s. 669-670].

Əməliyyata rəhbərliyi Ermənistanın ABŞ-da səfiri olan Armen Qaro (digər adıyla Qaregin Basdırmaçıyan) öz üzərinə götürür. Əməliyyatın “Müəllif hüquqları” isə Şahan Natali adlı erməni yazıçısına məxsus idi.

Şahan Nataliyə görə ilk qurban Osmanlı imperiyasının Daxili İşlər Naziri olmuş, İttihad və Tərəqqi partiyasının rəhbərlərindən biri olmuş Tələt paşa olmalı idi. Tələt paşanı o “Nömrə bir” adlandırırdı. Tələt paşanın qatili Soqomon Tehliryana qətl tapşırığını verərkən belə demişdi: “Nömrə bir qatili öldürəndən sonra heç yerə getmə. Orda qal və səni həbs edəcək polisin gəlməsini gözlə”. Natalinin planı bu qətldən istifadə edib, qondarma soyqırımına siyasi çəki vermək idi. Soqoman Tələt paşanı öldürməyə iki dəfə cəhd etmişdir. İlk cəhddə onunla üz-üzə gəldikdə öldürməyə cəsarəti çatmamış, ikinci cəhddə isə onu arxadan güllələmişdir. Daha sonra alman polisi tərəfindən həbs olunmuş, məhkəməyə çıxarılmışdır. Ermənilər həqiqətən də, bu məhkəmədən qondarma soyqırımının “reklam”ı kimi istifadə etmişdilər. Dərhal Tehliryanın adına fond yaradılmış və dünyada olan məhşur erməni iş adamları tərəfindən fonda külli miqdarda vəsait köçürülmüşdür. Məhkəmə zamanı Tehliryan ifadəsində bildirmişdir ki, guya ki, o yuxusunda anasını görmüş və anası ona Tələt paşadan onların “intiqamı”nı almasını bildirmişdir. Məhkəmə

♦ **Rzaquliyev Cavid Məhəmməd oğlu** - Bakı Dövlət Universitetinin “Kriminalistika və məhkəmə ekspertizası” kafedrasının “Transmilli cinayət hüququ” ixtisaslaşması üzrə magistrantı (Azərbaycan). E-mail: rzaquliyevc24@gmail.com

yalan olduğu açıq-aydın görünən bu ifadəyə əsasən, ona affekt vəziyyətində cinayət törətmə maddəsi ilə bəraət hökmü çıxarmışdır [2, s.1-6].

"Nemesis" planına uyğun olaraq həm Osmanlı imperiyası, həm də AXC-nin dövlət xadimləri cəzalandırılmalı idilər. Ermənilərin xain planı nəticəsində şəhid edilən şəxslərin siyahısı:

1) Fətəli xan Xoyski - Tiflisdə 1920-ci ilin 19 iyununda Aram Yerganiyan və Misok Kirakosyan tərəfindən qətlə yetirilmişdir.

2) Behbud xan Cavanşir - İstanbulda 1921-ci ilin 18 iyul tarixində Misak Torlakiyan tərəfindən qətlə yetirilmişdir.

3) Tələt paşa - Berlində 1921-ci ilin 15 mart tarixində SoqomonTehliryan tərəfindən qətləyetirilmişdir.

4) Səid Həlim paşa - Romada 1921-ci ilin 5 dekabr tarixində Arşavir Şirakiyan tərəfindən qətlə yetirilmişdir.

5) Bahaddin Şakir - Berlində 1922-ci ilin 17 aprel tarixində Aram Yerganiyan tərəfindən qətlə yetirilmişdir.

6) Camal paşa - Tiflisdə 1922-ci ilin 25 iyul tarixində Bedros Boğasiyan tərəfindən qətlə yetirilmişdir.

7) Həsən bəy Ağayev - 1920-ci il 13 iyul tarixində Tiflisdə Fətəli xan Xoyskinin qatilləri tərəfindən qətlə yetirilmişdir.

Ermənilərin siyahısında Ənvər paşanın da adı olsa da, ermənilər onu qətlə yetirməyə nail ola bilməmişdilər.

Nə qədər təəccüblü olsa da, bu siyahıda br sıra ermənilərin də adları var idi, hansı ki, onlar Osmanlı imperiyasının və Azərbaycanın onlara illərdir xoş münasibət göstərdiyini və onlara qarşı hər hansı qərəzliklərinin olmadığını bilir, buna görə də Daşnaksütyunun xəstə təfəkkürlü idarəçilərinin ideyalarını bölüşmürdülər. Əməliyyat planın hazırlayanlar onlara "satqın" damğası vurmuşdular. Həmin "satqınlıq"da ittiham olunaraq qətlə yetirilən ermənilərin siyahısı:

1) Mırktç Arutunyan Soqoman Tehliryan tərəfindən öldürülmüşdü.

2) Vahe Yesayan Arşavir Şirakyan tərəfindən qətlə yetirilmişdi. O, erməni cinayətkarlarının siyahısının hazırlanmasında türk hüquq-mühafizə orqanlarına yardım etməkdə "təqsirli" bilinmişdir.

Ermənilərin intiqam planları bununla bitməmişdir. İkinci Dünya Müharibəsindən sonra Hitler Almaniyasının yəhudilərə qarşı törətdiyi soyqırımına görə verilən cəzalar ermənilər üçün yeni bir "ilham" mənbəyi olmuş və onlar yeni terror dalğasına start vermişlərdir.

İlk terroru törədən 77 yaşlı Qurgen Yanıkyan idi. Yanıkyan 1973-cü il yanvarın 27-də Santa Barbarada (ABŞ) əlində olan tarixi tablosunu Türkiyəyə bağışlamaq istədiyini bildirərək qaldığı otelə dəvət etdiyi iki türk diplomatı Mehmet Baydar və Bahadır Dəmiri qətlə yetirib. O, məhkəmədə törətdiyi əmələ "soyqırımı" ilə əlaqələndirməyə çalışıb. O, buna nail ola bilməsə də, ASALA-nın yaradılmasına öncülük etdi.1975-1985-ci illər arasında ASALA terror təşkilatı müxtəlif ölkələrdə türk və digər mülki və diplomatik hədəflərə qarşı hücumlar həyata keçirdi, onlarla günahsız insanı qətlə yetirdi və şikəst etdi.

Digər bir terrorist isə Varujan Karapetyan idi. O, 1983-cü ilin 15 iyul tarixində Parisin Orli hava limanında Türk Hava Yollarının təyyarəsinə qarşı tərtib etdiyi terror aktı nəticəsində 4 fransız, 2 türk, 1 isveçli, 1 amerikalı olmaqla 8 nəfər həlak olmuş, 61 nəfər isə yaralanmışdır [1]. Keçirilən məhkəmə nəticəsində o, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, lakin 2001-ci ildə əfv edilmişdir. Ermənistanda isə o milli qəhrəman olaraq qarşılanmışdır. Dövlətin yüksək

rütbəli şəxsləri onu qəbul etmiş və törətdiyi cinayətə görə ona təşəkkür etmişdir. Karapetyan isə Orli terroru haqqında bunları demişdir:

"*Orli hava limanında həyata keçirilən əməl Levon Əkməkçiyanın 1982-ci ildə İstanbulda edam edilməsinə bir cavab idi. Biz yüksək rütbəli türk xüsusi xidmətinin işçilərini, habelə generalları və diplomatları daşıyacaq Türk Hava Yollarının təyyarəsini partlatmağı planlaşdırmışdıq. Keçirdiyimiz əməliyyat nəticəsində 10 nəfər türk qətlə yetirilmiş və 60 nəfər yaralanmışdır*".

Sadalanan terror cinayətlərinə ümumi nəzər saldıqda bəzi oxşar məqamlar diqqəti cəlb edir:

- Bu əməllər törədilərkən, ya sui-qəsdlə, ya da partlayışla törədilmişdir. Yeri gəlmişkən, partlayış terror cinayətləri terrorçuluğun xüsusi növüdür və adından da göründüyü kimi mahiyyəti xüsusi partlayıcı qurğularla törədilən terror aktlarıdır. Deməli bu əməllər törədilmə üsuluna görə partlayış terror cinayətləri kateqoriyasına aiddir.
- Bu əməllər qisas və intiqam hissləri ilə törədilmişdir. Bu isə onu göstərir ki, göstərilən əməllər törədilmə motivi etibarilə, millətçi terrorçuluğa aiddir.

**Biblioqrafiya**

1. Armenian terrorist freed and deported from France. Agence France Presse, April 24, 2001.
2. Nayiri qəzeti, nömrə 12, s.1-6
3. Newton, Michael (2014). Famous Assassinations in World History: An Encyclopedia, 2 volumes. ABC-CLIO, 2014, 864 p.
4. https://www.scribd.com/doc/9379225/Armenian-Terrorism-in-the-20th-Centurypdf
5. https://www.nytimes.com/1983/07/21/world/paris-says-suspect-confesses-attack.html

**Rzaguliyev J.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.91-94**
**UDC: 343**

**Operation "Nemesis": The Bloody Hand of Armenian Terror**

**Abstract:** The article examines the "Nemesis" plan of the Armenians and looks at the crimes committed as a result of this plan.

Armenian terrorist organizations are investigated and the common characteristics of the mentioned organizations are analyzed.

**Keywords:** terrorism; "Nemesis"; Armenian terrorism; explosive terrorist crime.

**References**

1. Armenian terrorist freed and deported from France. Agence France Presse, April 24, 2001.
2. Nayiri qəzeti, nömrə 12, s.1-6

♦ **Rzaguliyev Javid Mohammad oglu** - Master student of "Criminalistics and Forensic Expertise" Department of Baku State University, specializing in "Transnational Criminal Law" (Azerbaijan). E-mail: rzaquliyevc24@gmail.com

3. Newton, Michael (2014). Famous Assassinations in World History: An Encyclopedia, 2 volumes. ABC-CLIO, 2014, 864 p.

4. https://www.scribd.com/doc/9379225/Armenian-Terrorism-in-the-20th-Centurypdf

5. https://www.nytimes.com/1983/07/21/world/paris-says-suspect-confesses-attack.html

**Рзагулиев Д.М.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.91-94**
**УДК: 343**

## Операция «Немезида»: кровавая рука армянского террора

**Аннотация:** Исследуется план армян «Немезида» и рассматриваются преступления, совершенные в результате этого плана.

Были исследованы армянские террористические организации и проанализированы общие характеристики названных организаций.

**Ключевые слова*:*** террор; «Немезида»; армянский терроризм; террористическое преступление с использованием взрывчатых веществ.

## Библиография

1. Armenian terrorist freed and deported from France. Agence France Presse, April 24, 2001.

2. Газета Nayiri, № 12, с.1-6

3. Newton, Michael (2014). Famous Assassinations in World History: An Encyclopedia, 2 volumes. ABC-CLIO, 2014, 864 p.

4. https://www.scribd.com/doc/9379225/Armenian-Terrorism-in-the-20th-Centurypdf

5. https://www.nytimes.com/1983/07/21/world/paris-says-suspect-confesses-attack.html

[♦] **Рзагулиев Джавид Магомед оглы** – магистрант кафедры «Криминалистика и судебная экспертиза» Бакинского государственного университета по специальности «Транснациональное уголовное право» (Азербайджан). E-mail: rzaquliyevc24@gmail.com